Azərbaycan Respublikası Prezidentinin «S.A.Orucovun 100 illik yubileyinin keçirilməsi haqqında» 20 sentyabr 2011-ci il tarixli, 1743 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Sabit Atabala oğlu Orucovun 100 illik yubileyinin keçirilməsinə dair Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Ali təhsil müəssisələrinin rektorlarına Tədbirlər planının icrasının təmin edilməsi və görülmüş işlər haqqında məlumatın 2012-ci il 15 iyun tarixinədək Təhsil Nazirliyinə təqdim edilməsi tapşırılsın.

3. Təhsil Nazirliyinin Elm (G.Hüseynova) və Ali və orta ixtisas təhsili (İ.Mustafayev) şöbələri əmrdən irəli gələn məsələləri həll etsin.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin «Azərbayjan müəllimi» qəzetində dərc olunmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2011-ci il tarixli, 1743 nömrəli Sərəncamı.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***14 dekabr 2011-ci il***

***№2046***

---

**Əlavə**

Azərbaycan Respublikası Prezidentinin "S. A. Orucovun 100 illik yubileyinin keçirilməsi haqqında" 20 sentyabr 2011-ci il tarixli, 1743 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı